V

# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 07

Bakı şəhəri „12" yanvar 2011-ci il

**"2011-2015-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə üzrə Tədbirlər Proqramı"ın həyata keçirilməsi barədə"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 noyabr 2010-cu il tarixli 227 nömrəli qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı"nın icrasının təmin edilməsi, eləcə də xroniki böyrək çatışmazlığı xəstəliyindən əziyyət çəkən xəstələrə göstərilən tibbi xidmətin yaxşılaşdırılması, keyfiyyətinin və səmərəsinin artırılması məqsədilə

**ƏMR EDİRƏM:**

1. "2011-2015-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. Respublikanın səhiyyə idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, adı çəkilən Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətli həyata keçirilməsi təmin edilsin və görülən işlər barədə hər yarımilliyin sonunda Səhiyyə Nazirliyinə məlumat təqdim edilsin.
3. Maliyyə-iqtisadiyyat şöbəsinə tapşırılsın ki, illik büdcə sifarişlərində "2011-2015-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı"nın reallaşması üçün tələb olunan vəsaitin nəzərdə tutulması təmin edilsin.
4. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 11.01.2011 tarixli 07 nömrəli əmri ilə təsdiq edilmişdir

# "2011-2015-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin

## Tədbirlər Planı

| | Tədbirlərin adı | Məsul icraçı | İcra müddəti | Tərəfdaş qurumlar |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| **1. Proqramın həyata keçirilməsində təşkilatı tədbirlər** | | | | |
| 1.1. | Xroniki böyrək çatışmazlığı olan xəstələrin vahid elektron registrinin və məlumat bazasının yaradılması | SİM, RKUX, yerli tibb idarə və müəssisələri | 2011-2012 | |
| 1.1.1. | Qan və qan komponentlərin tədarükünə və istifadəsinə monitorinqinin təmin edilməsi məqsədilə kompüter proqramının hazırlanması və tətbiq edilməsi | TYTŞ, SİM, ETHvəTİ | | |
| **2. Böyrəklərin xroniki xəstəliklərinin profilaktikası, müalicəsi və reabilitasiyası** | | | | |
| 2.1. | Böyrəklərin xroniki patologiyası olan şəxslərin vaxtında aşkar edilməsi və onların tam həcmdə tibbi yardımla, o cümlədən dializ müalicəsi ilə təmin edilməsi | RKUX, yerli tibb idarə və müəssisələri | 2011-2015 | ARDNŞ-nin tibb idarəsi |
| 2.2. | Böyrəklərin xroniki xəstəlikləri zamanı müasir müalicə və diaqnostika üsullarının həyata keçirilməsi (böyrəklərin biopsiyası, punksiyası, periton dializi, innovasion dərman preparatlarının tətbiqi) | RKUX | 2011-2015 | |
| 2.3. | Xroniki böyrək çatışmazlığı olan xəstələrin sayına uyğun olaraq, hemodializ mərkəzləri şəbəkəsinin genişləndirilməsi | TYTŞ, Bakı ŞBSİ, İvəTM | 2011-2015 | ARDNŞ-nin tibb idarəsi |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 2.4. | Respublikada böyrəkköçürmə əməliyyatlarının aparılmasına hazırlıq işlərinin görülməsi və bu əməliyyatların həyata keçirilməsi | TYTŞ, RKUX, İvəTM | 2011-2015 | |
| 2.5. | Xroniki böyrək çatışmazlığı nəticəsində əmək qabiliyyətini itirmiş şəxslərin tibbi-sosial reabilitasiyasının həyata keçirilməsi | Yerli tibb idarə və müəssisələri | Mütəmadi | ƏvəƏSMN |
| 2.6. | Böyrəklərin xroniki xəstəliklərinin diaqnostikası və müalicəsi üzrə klinik protokolların hazırlanması və tətbiqi | İSİM, RKUX | 2011-2015 | |
| **3. Kadr hazırlığı** | | | | |
| 3.1. | Böyrəklərin xroniki xəstəliklərinin profilaktikası, diaqnostikası və müalicəsi üzrə mütəxəssislərin hazırlanması | KETŞ, RKUX, ADHTİ, ATU | 2011-2015 | |
| 3.2. | Böyrəklərin xroniki xəstəlikləri üzrə mütəxəssislərin beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirakının təmin edilməsi | KETŞ, BƏŞ | 2011-2015 | |
| **4. Böyrəklərin xroniki xəstəliklərinə dair maarifləndirmə** | | | | |
| 4.1. | Böyrəklərin xroniki xəstəliklərinin profilaktikasına dair populyar ədəbiyyatın, bukletlərin, vərəqələrin, plakatların çap edilməsi | RKUX, İSİM | 2011-2015 | |
| 4.2. | Kütləvi informasiya vasitələri ilə böyrəklərin xroniki xəstəliklərinin profilaktikasına dair məlumatların verilməsi | Mətbuat xidməti, RKUX | 2011-2015 | |